# Yüksəliş:
# Nikbin gələcəyə doğru

**“Biz çox şadıq ki, Avropa Olimpiya Komitəsi bu hüququ Azərbaycana etibar etdi. Avropa Oyunları heç vaxt keçirilməyib. Lap əvvəldən, Oyunların Bakıda keçiriləcəyi haqda qərar qəbul edilən vaxtdan biz bu Oyunları ən yüksək səviyyədə, Yay Olimpiya Oyunları səviyyəsində keçirməyi qərara aldıq”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*“Bakı- 2015” ilk Avropa Oyunları əhali arasında böyük ruh yüksəkliyi və coşqu, idmana yüksək maraq yaratmışdır. Azərbaycan idmanının yüksəliş dövrü xüsusən diqqət mərkəzindədir. Oxucularımızın redaksiyamıza zəngləri günbəgün artır. Bu istəyi nəzərə alaraq Mirkazım Seyidov və Vüsal Əskərovun “Azərbaycan: Avropa Oyunlarının ilk evi” kitabından Olimpiya oyunlarında, dünya çempionatlarında, digər mötəbər yarışlarda ölkəmizin qazandığı nailiyyətləri ixtisarla dərc edirik.*

***(əvvəli 23 və 24 iyun tarixli saylarımızda)***

## XXIX YAY OLİMPİYA OYUNLARI
## PEKİN-2008

Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiya oyunlarında layiqincə iştirak etməsi və uğur qazanması naminə bütün lazımi tədbirlərin görülməsi işi dövlət siyasətinin tərkib hissələrindən biri kimi qiymətləndirilir. Azərbaycan Prezidentinin “XXIX Yay Olimpiya Oyunlarına hazırlıq haqqında” 2006-cı il 24 iyul tarixli Sərəncam bu baxımdan idmançıların Pekin Olimpiadasına hazırlıq prosesində mühüm vasitə olmuşdur. Sərəncama əsasən, Pekin Olimpiadasına hazırlıq prosesinin yüksək səviyyədə aparılması üçün dövlət büdcəsindən 3 milyon 150 min manat vəsait ayrılmışdır. Dövlət başçısı Pekin Olimpiadası ərəfəsində qızıl medal qazanacaq idmançılara dövlət büdcəsindən 400 min manat, onların məşqçilərinə isə 200 min manat məbləğində mükafatın verilməsi barədə xüsusi sərəncam imzalamışdır. Nəticədə Çin Respublikasında keçirilmiş XXIX yay Olimpiya oyunları idman hərəkatının geniş vüsət aldığı Azərbaycan üçün də əlamətdar olmuşdur. Avqustun 10-da Çin Xalq Respublikasının paytaxtı Pekində – “China World Hotel” də XXIX Yay Olimpiya oyunları çərçivəsində “Azərbaycan günü” adlı əlamətdar bir tədbir keçirildi.

Mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanı beynəlxalq idman federasiyalarının rəhbərləri səmimiyyətlə qarşılayıblar. Onlar dövlətimizin başçısı ilə müxtəlif vaxtlarda görüşlərini xatırladaraq, bunun onlarda xoş təəssürat yaratdığını vurğuladılar.

Prezident İlham Əliyev mərasimdəki çıxışında dedi:

“İlk növbədə, mən bizim bu gecəmizə təşrif gətirdiyinizə görə sizin hamınıza təşəkkür etmək istərdim. Bu gün biz Pekində “Azərbaycan günü” keçiririk. Biz bu gün mədəniyyətimiz, tariximiz və idman tariximiz haqqında kiçik bir təqdimat etmək istəyirik. Müstəqil ölkə kimi Azərbaycan artıq dördüncü dəfədir ki, Olimpiya oyunlarında iştirak edir. İndiyədək bizim iştirakımız uğurlu olub, hər növbəti Olimpiya oyunlarında əvvəlkindən daha çox medal qazanmışıq. Ümid edirəm ki, bu yaxşı ənənə davam edəcəkdir. Ümumiyyətlə, biz idmanın inkişafına çox diqqət yetiririk, belə ki, idman bizim ictimai həyatımızın vacib bir amilidir. Olimpiya hərəkatının inkişafina böyük diqqət yetirilir. Azərbaycan regionumuzda və bütün dünyada Olimpiya hərəkatında əhəmiyyətli rol oynayır və Olimpiya ideallarını tam bölüşür.

XXIX Pekin Yay Olimpiya Oyunlarında ölkəmiz 12 - güləş (sərbəst güləş (7), yunan-Roma güləşi (6) və qadın güləşi (3)), taekvondo (1), gimnastika (qrup hərəkətləri üzrə komanda 6, fərdi yarışlarda 2), boks (2), atıcılıq (1), atçılıq (1), üzgüçülük (2), cüdo (6), atletika (2) və ağırlıqqaldırma (5) idman növlərində 44 idmançı ilə təmsil olunurdu. Bu yarışda təmsilçilərimiz digər Olimpiya oyunlarından həm idmançıların, həm də qazanılan medalların sayına görə fərqlənirdi. Komandamız Olimpiya oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandılar.

Maraqlıdır ki, atletlərimiz ilk dəfə olimpiadanın atçılıq yarışlarında və bədii gimnastika üzrə qrup hərəkətlərində qüvvələrini sınadılar. Həmçinin Pekin-2008 qadın güləşçilərimizin mübarizə aparacağı ilk olimpiada kimi tarixə düşdü.

Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) qazandırdı. Finala qədər bütün rəqiblərinə vaxtından əvvəl ipponla qalib gələn E. Məmmədli həlledici maçda koreyalı idmançını 13 saniyəyə məğlub edərək 73 kq çəkidə ən güclü oldu. Gümüş medalları yunan-Roma güləşində əldə etdik.

Finala qədər heç bir idmançıya aman verməyən Vitali Rəhimov (60 kq) həlledici matçda rusiyalı idmançıya məğlub olaraq, gümüş medal qazandı. Rövşən Bayramov (55 kq) da yunan-Roma güləşində finala qədər bütün rəqiblərini məğlubiyyətə uğratdı. İdmançımız finalda Rusiya təmsilçisinə 6:5 (3:2, 2:2) hesabı ilə uduzaraq 2-ci yerlə barışmalı oldu.

Sərbəst güləşçimiz Xetaq Qazyumovu (96 kq) yarımfinalda Rusiya atleti dayandırdı. Təmsilçimiz bürünc medala layiq görüldü. İlk görüşdə məğlub olsa da, rəqibinin finala qədər irəliləməsi Mariya Stadnikin (48 kq) təsəlli yarışlarda qüvvəsini sınaması ilə nəticələnib. Medal uğrunda yarışda isə zərif cinsin nümayəndəsi qazaxıstanlı idmançını döşəyə çıxmağa peşman etdi. Boksçumuz Şahin İmranov (57 kq) da medal qazanan idmançıların siyahısına düşə bildi. Yarımfinala qədər irəliləyən boksçumuz bu mərhələdə döyüşü yarımçıq saxlamalı oldu. Zədələndiyi üçün döyüşə bilməyən təmsilçimiz bürünc medalla kifayətləndi. 1/2 finalda uduzan Mövlud Mirəliyev (100 kq) cüdo yarışında bürünc medal uğrunda polşalı idmançını mübarizədən kənarlaşdırdı.

Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

Ölkə Prezidenti İlham Əliyev 22 yanvar 2008-ci il tarixində Azərbaycanın idman tarixinin və Olimpiya hərəkatında qazandığı uğurların mədəni sərvət kimi öyrənilməsi və təbliğinin daha da gücləndirilməsi məqsədilə Bakı şəhərində “Azərbaycanda Olimpiya hərəkatı və İdman muzeyinin yaradılması haqqında” sərəncam imzaladı. Tikinti üçün Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrıldı.

## XXX YAY OLİMPİYA OYUNLARI
## LONDON-2012

İyulun 28-də isə Londonda XXX Yay Olimpiya Oyunları çərçivəsində “Azərbaycan Günü” keçirilmişdir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak edərək idmançılarımıza uğurlar arzulamışlar.

London olimpiadasında Azərbaycan müstəqillik tarixində ilk dəfə olaraq 5 yeni – kanoe, akademik qayıqlarda avarçəkmə, velosiped idmanı, idman gimnastikası və qılıncoynatma idman növlərində də təmsil olunub. Pekində Azərbaycanı 1 hakim (güləş) təmsil edirdisə, Londona 5 hakimimiz (2 güləş, gimnastika, boks və ağırlıqqaldırma) yollanıb. Bundan başqa, idmançılarımızla yanaşı, 6 həkim, 29 məşqçi də komandamızın heyətində Londona gedib. Londonda ölkəmizi təmsil edən 53 idmançıdan 41-i ilk dəfə Olimpiya Oyunlarının iştirakçısı idi.

Azərbaycan olimpiadaçıları Londan Olimpiyadasında rekord sayda 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmışlar.

Azərbaycan bu yarışlarda qeyri-rəsmi komanda hesabında 30-cu yeri tutmuşdur. Belə ki, ölkəmiz qazanılmış medalların sayına görə dünyada 24-cü, Avropa ölkələri arasında 15-ci, müsəlman ölkələri arasında 3-cü yerdə olub.

Azərbaycan Respublikasının dövlət bayrağını London-2012 Yay Olimpiya Oyunlarında Pekin-2008 Olimpiadasının çempionu Elnur Məmmədli apardı. Azərbaycanın Olimpiya yığmasını 53 üzvü idmanın 16 növündə təmsil olunurdu. Velosiped, avarçəkmə, qadın boksu, idman gimnastikası yarışlarında idmançılarımız ilk dəfə qüvvələrini sınayırdılar.

Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında Azərbaycana ilk medalı ağır atletika üzrə yarışlarda 56 kq çəki dərəcəsində mübarizə aparan idmançımız Valentin Xristov qazandırıb. 286 kq nəticə göstərən idmançımız bürünc medala sahib çıxıb.

London-2012 Olimpiadasında sərbəst güləş üzrə yığmamız 6 çəki dərəcəsində Olimpiya medalları uğrunda yarışırdı. Sərbəst güləş yarışlarında ölkəmizi Toğrul Əsgərov (60 kq), Cəbrail Həsənov (66 kq), Əşrəf Əliyev (74 kq), Şərif Şərifov (84 kq), Xetaq Qazyumov (96 kq) və Cəmaləddin Maqemadov (120 kq) qoruyurdular.

Güləşçilərimizdən Toğrul Əsgərov və Şərif Şərifov Olimpiya çempionu adına layiq görülürlər. Xetaq Qazyumov isə olimpiadanın bürünc mükafatını qazandı. Beləliklə, sərbəst güləş üzrə Azərbaycan komandası London Olimpiadasını 2 qızıl və 1 bürünc medalla başa vurdu. Sevindirici haldır ki, sərbəst güləş üzrə Azərbaycan yığması dünyanın aparıcı ölkələrini qabaqlayaraq ABŞ-la birgə 1-ci yeri tutdu. London-2012 Olimpiadasının qızıl medalını 20 yaşı tamam olmamış alan Toğrul Əsgərov həm də ən gənc çempion kimi Olimpiya tarixinə düşdü.

Yunan-Roma güləşi üzrə yarışlarda yığmamızın 2 üzvü Rövşən Bayramov (55 kq) ikinci, Emin Əhmədov (74 kq) üçüncü yeri tutdular. Bununla komandamız London-2012-də yunan-Roma güləşi üzrə yarışlarda 5-ci pillədə qərarlaşdı.

Qadın güləşi üzrə yarışlarda Mariya Stadnik (48 kq) gümüş, Yuliya Ratkeviç (55 kq) bürünc medala sahib çıxdı. Bununla da ölkəmiz qadın güləşi yarışlarında 3-cü oldu. Ümumilikdə, olimpiadanın güləş proqramında 18 dəst medal uğrunda 13 atletimiz yarışdı. Güləşçilərimiz ümumilikdə 2 qızıl, 2 gümüş və 3 bürünc medalla mükafat qazanan 29 ölkə arasında 4-cü oldular. Beləliklə, Azərbaycan Olimpiya yığması ümumilikdə, London-2012-də 10 medal (2 qızıl, 2 gümüş və 6 bürünc) qazanaraq yarışları medalçılar siyahısında 30-cu pillədə başa vurdular.

London Olimpiadasında 53 lisenziya ilə 16 idman növündə təmsil olunan idmançılarımız rekord sayda – 10 medal qazanmaqla ölkəmizin dünya olimpiya hərəkatındakı lider mövqeyini bir qədər də möhkəmləndirdilər.

2012-ci il noyabrın 7-də “Buta” sarayında Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) 20 illik yubileyi münasibətilə təntənəli mərasimin keçirilməsi də idman tarixində əlamətdar hadisələrdəndir. Mərasimdə çıxış edən Prezident İlham Əliyev Milli Olimpiya Komitəsinin tarixinin müstəqilliyimizin tarixi ilə üst-üstə düşdüyünü vurğuladı.

Milli Olimpiya Komitəsinin 20 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində Prezident İlham Əliyev demişdir:

“Azərbaycan artıq idman dövlətidir. Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. İdmanın Olimpiya hərəkatının inkişafına verilən beynəlxalq dəstək və qiymət çox yüksək səviyyədədir”.

Sevindiricidir ki, Olimpiya hərəkatı və idman sahəsində görülən işlər Azərbaycana beynəlxalq miqyasda nüfuz və səyğı qazandırıb. 2016-cı ildə Beynəlxalq Şahmat Olimpiadası, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. 2019-cu ildə hərbiçilərin Yay Olimpiya Oyunlarının Bakıda keçirilməsi ilə bağlı razılıq əldə olunub. Bakı, Doha, İstanbul, Madrid, Roma, Tokio ilə yanaşı 2020-ci il Olimpiadasına ev sahibliyi etməyə namizədliyini irəli sürüb.

***(davamı növbəti saylarımızda)***